# ÜRƏKLƏRƏ YOL TAPAN İNSAN

Tibb və fəlsəfə üzrə fəlsəfə doktoru, Əməkdar həkim, istefada olan Tibb xidməti polkovniki, cərrah-uroloq, yazıçı-dramaturq Ramiz Fəzail oğlu Əkbərov 1956-cı ilin 11 sentyabrında Yardımlı rayonunda anadan olmuşdur. Sadaladığım rəsmi titullar onun sözün həqiqi mənasında adlı-sanlı bir insan olmasından xəbər verir. Əlbəttə ki, bu şərəfli-ad-san, bu uca şöhrət onun yaşadığı ömür pillələrində çəkdiyi halal və gərgin zəhmətinin, humanizminin nəticəsidir. Belə müdrik insanların yubileyləri də əlamətdar, yaddaqalan olur. Üstəlik də ki, belə ziyalılar həm də "yaşadığım bu illərdə neyləmişəm, xalqıma nə xidmətlər göstərmişəm" deyə sanki özlüklərində hesabatsayağı düşünürlər də. Bu kimi sorğu-düşüncələrə isə "el gözü tərəzidir" misalı ilə elə el sözü - yəni ətrafdakı tanıyan insanlar, qohumlar, dostlar cavab verirlər. Bu nöqteyi-nəzərdən götürdükdə, 2021-ci ildə "Mütərcim" nəşriyyatında nəşr olunmuş "Ramiz Əkbər - 65" adlı rəylər, fikirlər, ürək sözlərindən ibarət olan kitab görkəmli ziyalımız Ramiz Əkbərin 65 ildə qazandığı hörmət-izzətin inikasıdır.

Kitabda rəsmi olaraq Ramiz həkimin "Monoqrafiyaları və elmi-kütləvi kitabları", "Elmi məqalələri" (urologiya üzrə və fəlsəfə üzrə ayrı-ayrılıqda), səmərələşdirici təklifləri, Metodik




tövsiyələri, Bədii-publisistik kitabları (publisistik məqalələri, redaktoru olduğu kitabları), Bədii yaradıcılığı (povestləri, pyesləri (səhnəciklər, birpərdəli və çoxpərdəli pyesləri), hekayələri) adlı bölmələrdə yaradıcılıq aləminin biblioqrafiyası təqdim olunub. Bütün bunlar Ramiz Əkbərin ziyalı potensialını rəsmi olaraq özündə əks etdirir. Yəni bu kimi göstəricilərlə tanışlıq tapan oxucunun gözləri qarşısında Ramiz Əkbər dünyası bir böyük yaradıcı şəxsiyyət olaraq canlanır. Oxucu bununla onun elmi-ədəbi-fəlsəfi dünyagörüşünün zənginliyi ilə rəmsi şəkildə tanışlıq tapır. Bütün bunlar 65 illik ömür yolunda xalq ziyalısının xalqına verdiyi rəsmi hesabatı səciyyəsi daşıyır.

Kitabda yaxın adamlarının, dostlarının Ramiz Əkbər haqqında söylədikləri digər bir geniş bölüm də özünə yer almışdır ki, bunu da şərti olaraq qeyri-rəsmi xarakterli hesabatın inikası kimi hesab etmək olar. Yəni özünün verdiyi dəqiq statistik göstəricilərdən kənarda biri də var bu rəsmi kimliyə xalq gözündən baxılma, dəyərləndirilmə məsələsi. Başqa sözlə, özünütəqdimin xalq tərəfindən rəsmiyyətdən kənar, səmimi olaraq qiymətləndirilməsi, təqdir edilməsi.

Xalq şairi Qabildən tutmuş digər qələm adamları olan ziyalılarımıza qədər Ramiz həkimə müxtəlif parametrlərdən baxış bucağı altında təqdir-qiymət veriblər.

Hər adam ürəyə yol tapa bilmir,
Hər adam adamla dil tapa bilmir.
Tanımır bu yolu, bilmir bu dili,
Oxumur gözdəki dərdi-nisgili.

Bu bəndlə başladığı şeirini Xalq şairi Qabil hələ 2006-cı ildə yazıb:

Əlli müdrikliyin yaş ucalığı,
Əlli yaşlı Ramiz baş ucalığı.
Xasiyyəti həlim, qərarı qəti -
Cərrah bıçağıyla qələm vəhdəti!

Əbəs deyil ki, "əlli oldun - bəlli oldun" deyiblər. Şair Qabilin Ramiz Əkbərə həsr etdiyi bu mənzumənin bədii-poetik vüsəti filosof - təbib Ramiz həkimin portretini ortalığa qoyur.

Beləcə, şairin bu bədii təqdimatından sonra professorlar Yaşar Qarayev, Hüseyn İsmayılov, Füzuli Bayat, Seyfəddin Rzasoy, Ağayar Şükürov, Xalq yazıçıları Hüseyn Abbaszadə, Sabir Əhmədli, Xalq şairi Sabir Rüstəmxanlı, həkimlərdən Nazim Quliyev, Ələkbər Həmidov, Vaqif Rəhimov, Davud Namazov, Həbib Məmmədov, İlqar Əlizadə və başqalarının ürək sözləri vasitəsilə Ramiz Əkbər şəxsiyyətinin əsrarəngiz tərəfləri açılır, 65 illik ömür yolunun qeyri-rəsmi hesabatı elin gözü ilə təqdim və təqdir edilir.

Kitabın son bölümü kimi verilən "Şəkillər, xatirələr" isə yazıçı-dramaturq, həkim-filosof Ramiz Əkbərin ömür yolunun müxtəlif anlarını özündə əks etdirən şəkillərin dili ilə vərəqlənib - açılır. Bu şəkillər də ailədə və cəmiyyətdə Ramiz həkimin eyni dərəcədə parlaq mövqeyini əks etdirir.

Cansağlığı, uğurlar diləyi ilə 70 illiyinizdə də bu cür möhtəşəm görünüşdə oxucuların görüşünə gəlməyinizi arzulayıram, Ramiz həkim! Tanrı sizə yar olsun!

**Şakir Albalıyev**
**AMEA-nın aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent**